TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
_________ E. M. Ağayev
"____" __________ 2015-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

Bu dərman vasitəsini qəbul etməyə başlamazdan əvvəl bu içlik-vərəqəni diqqətlə oxuyun!
İçlik-vərəqəni saxlayın, ola bilsin ki, Sizə onu yenidən oxumaq lazım gələ bilər.
Daha ətraflı məlumatı Siz həkiminizdən və ya əczaçıdan ala bilərsiniz. Əgər lazım bilsəniz, məsləhət üçün onlara müraciət edin.

**SOLİDAQOREN** oral damcı
SOLIDAGOREN®

**Tərkibi**
*Təsiredici maddə:* 10 ml (= 9,5 q) damcının tərkibində 7,9 ml qızılsəbət otu (Solidaginis herba), qazayağı otu (Anserinae herba qarışığının (1:1,5 - 2,1), qatırquyruğu otunun (Equiseti Herba) duru ekstraktı (4,2 : 1,4 : 1) vardır, ekstragent: etanol 50 % (həcm/həcm);
*Köməkçi maddələr*: təmizlənmiş su, etanol 96%.

**Təsviri**
Qəhvəyi rəngli şəffaf maye.

**Farmakoterapevtik qrupu**
Urologiyada istifadə olunan vasitələr.
**ATC kodu:** G04BP50

**İstifadəsinə göstərişlər**
Sidik kisəsinin (sistit) və böyrəklərin (pielonefrit) kəskin və xronik infeksiyalarında əsas (bazis) müalicə, həmçinin kompleks müalicənin komponenti kimi.
Böyrəklərin xronik qeyri-infeksion xəstəlikləri (qlomerulonefrit, interstisial nefrit).
Sidik daşlarının əmələ gəlməsinin profilaktikası, o cümlədən onların xaric edilməsindən sonra.

**Əks göstərişlər**
Preparatın təsiredici maddəsinə və ya digər komponentlərindən hər hansı birinə qarşı yüksək həssaslıq. Solidaqoren preparatı Astrakimilər (Asteraceae) fəsiləsindən olan bitkilərə allergiyası olan şəxslər tərəfindən istifadə edilməməlidir, belə ki, bu fəsilədən olan bitkilər bu preparatın tərkibinə daxil olan bitki ekstraktlarının istehsalında istifadə olunur.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Digər dərman vasitələri ilə qarşılıqlı təsiri məlum deyil.
Preparatın tərkibində spirt olduğu üçün o, digər preparatların təsirini dəyişə bilər.

**Ehtiyat tədbirləri**
Preparatı ürək çatışmazlığı və ya böyrək çatışmazlığı nəticəsində yaranan ödemlərin diuretik müalicəsi üçün istifadə etmək tövsiyə edilmir. Bunu, xüsusilə ahıl yaşlı insanlarda istifadə zamanı nəzərə almaq lazımdır.
Sidikdə qan olduqda, bədən temperaturu yüksək olduqda və ya simptomatikanın 5 gündən artıq saxlandığı zaman həkimə müraciət etmək tövsiyə olunur.
Preparatın tərkibində 45% həcm/həcm spirt vardır. Tövsiyə olunan dozaya əməl etdikdə orqanizmə hər 30 damcının qəbulu ilə 0,6 q spirt daxil olur.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Solidaqoren hamiləlik və laktasiya dövründə yalnız ana üçün fayda/döl (uşaq) üçün risk nisbətinin həkim tərəfindən hərtərəfli qiymətləndirilməsindən sonra istifadə oluna bilər.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Tövsiyə edilən dozalara əməl etdikdə təsir göstərmir.

**Uşaqlar**
Preparat 12 yaşa qədər uşaqlarda istifadə üçün nəzərdə tutulmamışdır.

**İstifadə qaydası və dozası**
Böyüklərə və 12 yaşdan böyük uşaqlara:
Gündə 3 dəfə 20 - 30 damcı Solidaqoren. 30 damcı 1,4 ml-ə müvafiq gəlir.
Solidaqoreni kifayət qədər maye ilə içmək lazımdır.
İstifadə müddəti həkim tərəfindən fərdi olaraq müəyyən edilir.

**Əlavə təsirləri**
*Çox nadir*: yüksək həssaslıq reaksiyaları və allergik reaksiyalar.
*Tezliyi məlum olmayan*: mədə-bağırsaq traktında yüngül pozğunluqlar.
Allergik reaksiyanın ilk əlamətləri (məsələn, səpgi) meydana çıxan kimi, preparatın qəbulunu dayandırmaq lazımdır. Bu təlimatda qeyd edilməyən əlavə təsirlər meydana çıxarsa, həkimə müraciət etmək lazımdır.

**Buraxılış forması.**
Oral damcı. 20 ml, 50 ml və ya 100 ml damcı, damcıladıcısı və burulub açılan plastmas qapağı olan flakonda. 1 flakon içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
25°C-dən yüksək olmayan temperaturda, orijinal qablaşdırmasında saxlamaq lazımdır..
İşıqdan qorunan və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
3 il.
Flakon açıldıqdan sonra saxlanma müddəti – 3 ay.
Yararlılıq müddəti bitdikdən sonra Solidaqoreni istifadə etməyin.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
Dr. Qustav Klyayn QmbH & Co. KG
Ştaynenfeld 3, 77736 Sell am Harmersbax, Almaniya /
Dr. Gustav Klein GmbH & Co. KG
Steinenfeld 3, 77736 Zell am Harmersbach, Germany